**İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibtələr sistemindəki rolunun daha da artmasını şərtləndirdi. Hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirdi.**




# Sabitlik adası, qlobal məsələlərin müzakirə məkanı

Son illərdə Azərbaycan regionda və beynəlxalq aləmdə artan nüfuzu ilə seçilir. Bu nüfuz yalnız coğrafi mövqeyindən və təbii resurslarından qaynaqlanmır - həm də dövlətin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir. Azərbaycanın beynəlxalq aləmdə artan rolu müxtəlif sahələrdə özünü göstərir: enerji təhlükəsizliyi, mədəni diplomatiya, multikulturalizm, nəqliyyat-logistika layihələri və beynəlxalq tədbirlərə evsahibliyi kimi.

Ölkəmizin mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir.

"Azərbaycan sabitlik adasıdır" ifadəsi son illərdə tez-tez işlədilən bir təsvirə çevrilib. Bu ifadə əsasən regionda baş verən siyasi və iqtisadi böhranlar fonunda Azərbaycanın sabit və təhlükəsiz bir ölkə kimi tanınmasını təsdiqləyir.

Azərbaycan həm də beynəlxalq tədbirlər məkanıdır. Bu da müəyyən əsaslara söykənir. Çünki müstəqillik qazandıqdan sonra Azərbaycan özünü regional və qlobal tədbirlərin ev sahibi kimi təqdim etməyə çalışıb və bu sahədə uğurlu nümunələr ortaya qoyub.

Buna misal nüfuzlu beynəlxalq tədbirlərdən bəzilərini göstərmək yetərlidir:

- BMT və beynəlxalq forumlar - Azərbaycanın bir sıra BMT tədbirlərinə, Mədəniyyətlərarası Dialoq Forumu, Qoşulmama Hərəkatının Zirvə görüşləri və digər beynəlxalq platformalara evsahibliyi;
- COP29 - İqlim dəyişikliklərinə dair BMT-nin COP29 konfransının Azərbaycanda keçirilməsi ölkənin beynəlxalq nüfuzunu daha da artırdı;
- İqtisadi və enerji forumları - Bakı Enerji Həftəsi, Qlobal Bakı Forumu (Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunur), ADA Universitetində keçirilən beynəlxalq təhlükəsizlik və diplomatiya forumları Azərbaycanın dialoq platforması kimi rolunu gücləndirir;
- Şuşada, Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü isə Azərbaycanın qlobal iqtisadiyyatın hazırkı vəziyyətinin müzakirə edildiyi məkan kimi tanındığının növbəti təsdiqidir;
- İdman sahəsi üzrə - Avropa Oyunları (2015), İslam Həmrəyliyi Oyunları (2017), "Formula 1" Bakı "Qran-pri"si (2016-cı ildən bu günə qədər) Azərbaycanın həm də idman ölkəsi olduğunu təsdiqləyən reallıqlardır.

Bütün bunlar Azərbaycanın beynəlxalq toplantıların keçirilməsində əlverişli məkan olduğunu bir daha təsdiqləyir. Qlobal təşkilatlar öz konfranslarını, forumlarını rahat, təhlükəsiz şəkildə keçirmək üçün məkanlar müəyyənləşdirirlər. Azərbaycan əksər beynəlxalq qurumların, QHT-lərin siyahılarında ən üst sıralarda yer alır. Bunlar təsdiq edir ki, Asiya və Avropanın kəsişməsində yerləşən Azərbaycanda siyasi sabitlik və təhlükəsizlik yüksək səviyyədədir. Sabitlik isə tədbirlərin rahat keçirilməsi üçün əsas şərtdir. Bununla yanaşı, ölkəmizdə tikilən müasir konfrans mərkəzləri, mehmanxana və nəqliyyat infrastrukturu beynəlxalq tədbirlər üçün əlverişli şərait yaradır.

Ümumiyyətlə, Azərbaycan dünyasəviyyəli tədbirlərə evsahibliyi edərək beynəlxalq arenada özünün imicini və nüfuzunu artırır. 3-4 iyul tarixlərdə Xankəndidə keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü isə ilk dəfə Qarabağda reallaşacaq. Sammitdə 13 dövlət təmsil olunacaq.

Sammitin Azərbaycanda keçirilməsi həm də onu göstərir ki, ölkəmiz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərini daha da dərinləşdirir. Düzdür, ECO-da Azərbaycanın strateji əməkdaşlıq etdiyi ölkələr mövcuddur. Həmin ölkələrlə əməkdaşlığın daha da dərinləşməsi Azərbaycanın xarici siyasətində prioritet məsələdir. Bu baxımdan Xankəndidə keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatının sammiti bir yandan təşkilata üzv dövlətlər arasında əlaqələrin dərinləşməsinə, iqtisadi, eləcə də strateji əməkdaşlıq münasibətlərinin daha da genişlənməsinə xidmət edəcək.

Bu sammit həmçinin Azərbaycanın regional inteqrasiya proseslərində fəal iştirakını daha da gücləndirməklə yanaşı, ölkənin beynəlxalq miqyasda diplomatik və iqtisadi mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verəcək. Eyni zamanda Azərbaycanın təklif etdiyi yeni əməkdaşlıq formatlarının və layihələrin ECO məkanında həyata keçirilməsi üçün əlverişli imkanlar formalaşacaq.

Bir sözlə, bu və başqa forumlara, konfranslara, sammitlərə yüksək səviyyəli evsahibliyi ilə Azərbaycan təşəbbüskar və regional lider statusunu daha da möhkəmləndirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 4 iyul (№ 134).- S.10.